# Qanlı Yanvar faciəsi ilə bağlı rəsm sərgisi keçirilib



Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin qurbanlarına həsr edilən rəsm sərgi müsabiqəsi və “dəyirmi masa” keçirilib.

Əvvəlcə mərkəzin sərgi salonunda Bakının küçələrində azadlıq istəyən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin törətdiyi misli görünməmiş faciəni əks etdirən rəsm sərgisinə baxış keçirilib və gənclərin ifasında şeirlər oxunub.

Sonra 20 Yanvar faciəsi ilə əlaqədar hazırlanmış videoçarx nümayiş olunub.

Mərkəzin konfrans zalında davam edən tədbirdə Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov keçmiş sovet dövlətinin hərb maşınının 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayət olduğunu qeyd edib. Mərasimdə bidirilib ki, yalnız Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışından sonra 1990-cı il Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilib və terror aktının beynəlxalq ictimaiyyətə tanıdılması istiqamətində mühüm işlər görülüb. Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ildə Bakıda “20 Yanvar” dairəsində memorial abidə kompleksi inşa olunub. Hər il xalqımız igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, xatirələrini böyük ehtiramla yad edir.

“Şöhrət” ordenli, Əməkdar müəllim, Prezident təqaüdçüsü Ofeliya Babayeva, Veteranlar Şurasının sədri Sovet Şükürov, Əməkdar məşqçi Mirağa Qiyasov, 31 saylı tam orta məktəbin tarix müəllimi Raqif Şirinov, İdman Könüllüləri İctimai Birliyinin Regional bölməsinin direktoru Aytac Əkbərova və digərləri bu faciədən 30 il keçdiyini, həmin günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan, müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan mərd vətən övladlarının canlarından keçərək şəhidlik zirvəsinə yüksəldiklərini qeyd etdilər. Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətin bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktı olduğu bildirilib.

Sonda iştirakçılara “20 Yanvar müstəqilliyə gedən yolda şərəf və qəhrəmanlıq salnaməsidir” adlı məlumat xarakterli bukletlər paylanılıb.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2019.- 19 yanvar.- S.4.